*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 300-308*

https://doi.org/10.62837/2026.3.300

**SƏBUHİ QƏHRƏMANOV**
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dillər Universiteti
Rəşid Behbudov küç., 134
gahramanovsabuhi@gmail.com
ORCID ID: https://orcid.org/0009-0008-9817-0409

# MİLLİ KİMLİK VƏ AZADLIQ İDEALLARININ AZƏRBAYCAN TARİXİ ROMANLARI VƏ DRAMATURGİYASINDA BƏDİİ TƏZAHÜRÜ (1960-1980-ci illər)

## XÜLASƏ

Məqalədə milli kimlik və azadlıq ideallarının 1960-1980-ci illərin tarixi romanları və dramaturgiyasında bədii təcəssümü problemi araşdırılır. Tədqiqat sovet ideoloji rejimi çərçivəsində bədii əsərlərdə milli özünüdərk, azərbaycançılıq düşüncəsi və tarixi yaddaşın rekonstruksiyası məsələlərini təhlil etməyi qarşıya məqsəd qoyur.

Araşdırma göstərir ki, həmin dövrdə yazıçı və dramaturqlar Azərbaycan tarixinin müxtəlif mərhələlərinə müraciət etməklə milli dövlətçilik ənənələrini, tarixi şəxsiyyətlərin fəaliyyətini və xalqın mənəvi dəyərlərini bədii şəkildə canlandırmağa çalışmışlar. İsa Hüseynovun "Məhşər", Anarın "Dədə Qorqud", Əzizə Cəfərzadənin "Bakı-1501", Fərman Kərimzadənin "Xudafərin körpüsü", Əlisa Nicatın "Qızılbaşlar", İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan", "Şeyx Məhəmməd Xiyabani" və s. əsərlər milli tarix və kimlik məsələlərinin bədii ifadəsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu əsərlərin təhlili göstərir ki, sovet dövründə mövcud olan ideoloji məhdudiyyətlərə baxmayaraq, yazıçılar tarixi mövzular vasitəsilə milli kimlik, azadlıq düşüncəsi və tarixi yaddaş ideallarını dolayısı şəkildə ifadə etmişlər. Tarixi şəxsiyyətlər, folklor və epos motivləri, həmçinin dövlətçilik ənənələri bu əsərlərdə milli şüurun formalaşmasının mühüm bədii vasitələrinə çevrilmişdir.

Aparılan təhlil 1960-1980-ci illər Azərbaycan tarixi roman və dram əsərləri milli özünüdərk prosesinin güclənməsində və azərbaycançılıq məfkurəsinin bədii ifadəsində mühüm rol oynadığını göstərir.

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, azərbaycançılıq, tarixi roman, dramaturgiya, milli kimlik, azadlıq idealları

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 300-308*

**САБУХИ ГАХРАМАНОВ**
Кандидат филологических наук
Азербайджанского университета языков
ул. Рашида Бейбутова, 134
E-mail: gahramanovsabuhi@gmail.com
ORCID ID: https://orcid.org/0009-0008-9817-0409

# Художественное проявление национальной идентичности и идеалов свободы в азербайджанских исторических романах и драматургии (1990-1980-е годы)

## РЕЗЮМЕ

В статье рассматривается проблема художественного воплощения национальной идентичности и идеалов свободы в исторических романах и драматургии 1990-1980-х гг.

Целью работы является аналитический разбор вопросов национального самосознания, азербайджанского мышления и воссоздания исторической памяти в рамках режима советской идеологии.

Как показывают исследования, в тот период, обращаясь к различным этапам истории Азербайджана, писатели и драматурги пытались в художественной форме воплотить традиции национальной государственности, деятельность исторических личностей и духовные ценности народа.

Произведения «Судный день» Исы Гусейнова, «Деде Коркут» Анара, «Баку-1501» Азизы Джафарзаде, «Меч Худаферин» Фармана Керимзаде, «Кызылбаши» Алиса Ниджата, «Хуршидбану Натаван», «Шейх Мухаммед Хиябани» Ильяса Эфендиева и другие приобретают особую значимость с точки зрения художественного изображения проблематики национальной идентичности и истории народа. Анализ данных произведений свидетельствует, что несмотря на существующие в советский период идеологические ограничения, писатели с помощью исторической тематики окольными путями выражали идеи национальной идентичности, свободомыслия и исторической памяти.

Исторические личности, эпические мотивы и фольклор, традиции государственности народа претворились в этих произведениях в художественные приемы формирования национального сознания.

Проведенное исследование демонстрирует неотъемлемую роль художественного изображения в укреплении процесса национального самосознания и идеологии азербайджанизма в азербайджанских исторических романах и драматических произведениях 1990-1980-х годов.

**Ключевые слова:** азербайджанская литература, азербайджанизм, исторический роман, драматургия, национальная идентичность, идеалы свободы

**SABUHI GAHRAMANOV**
PhD in Philology
Doctoral Candidate in the Doctor of Sciences Program
at the Azerbaijan University of Languages,
134 Rashid Behbudov Streeet
gahramanovsabuhi@gmail.com
ORCID ID: https://orcid.org/0009-0008-9817-0409

# THE LITERARY MANIFESTATION OF NATIONAL IDENTITY AND IDEALS OF FREEDOM IN AZERBAIJANI HISTORICAL NOVELS AND DRAMATURGY (1960S-1980S)

## SUMMARY

The problem of the literary manifestation of national identity and ideals of freedom in historical novels and dramaturgy of the 1960s–1980s is examined in the article. The study aims to analyze issues of national self-awareness**,** the concept of Azerbaijanism and the reconstruction of historical memory in literary works created within the framework of the Soviet ideological regime.

Research shows that during that period, writers and playwrights tried to literarily revive the traditions of national statehood, the activities of historical figures and the moral values of the people by referring to various stages of Azerbaijani history. Isa Huseynov's "Mahshar", Anar's "Dede Gorgud", Aziza Jafarzadeh's "Baku-1501", Farman Karimzadeh's "Khudaferin Korpusu", Alisa Nijat's "Gizilbashlar", Ilyas Efendiyev's "Khurshidbanu Natavan", "Sheikh Muhammad Khiyabani" and other works are of particular importance in terms of the literary expression of issues of national history and identity. An analysis of these works demonstrates that despite the ideological restrictions that existed during the Soviet era, writers indirectly expressed ideas of national identity, the idea of freedom and historical memory through historical themes. Historical figures, folklore and epic motifs as well as traditions of statehood became important literary means for the formation of national consciousness in these works.

The analysis shows that Azerbaijani historical novels and dramatic works of the 1960s-1980s played an important role in strengthening the process of national self-awareness and in the literary expression of the ideology of Azerbaijanism.

**Keywords:** Azerbaijani literature, Azerbaijanism, historical novel, dramaturgy, national identity, ideals of freedom

## GİRİŞ

Azərbaycan nəsri və dramaturgiyasında tarixi əsərlər ən çox 1970-1980-ci illərdə yazılmışdır. İsa Hüseynovun "Məhşər", Anarın "Dədə Qorqud", Əzizə Cəfərzadənin "Bakı-1501" və "Aləmdə səsim var mənim", Fərman Kərimzadənin "Xudafərin körpüsü" və "Çaldıran döyüşü", Əlisa Nicatın "Qızılbaşlar", İlyas Əfəndiyevin "Geriyə baxma, qoca", "Xurşidbanu Natəvan" və "Şeyx Məhəmməd Xiyabani", Ə.Məmmədxanlının "Babək" və s. roman və pyeslərin meydana gəlməsi bilavasitə ictimai-siyasi və milli-mədəni özünüdərk prosesləri ilə bağlı hadisədir.

Ümummilli lider Heydər Əliyevin respublika başçısı olaraq Azərbaycana rəhbərliyi milli-mənəvi keçmişə, tarixi-mədəni irsə, mədəniyyət və folklor abidələrinə marağı daha da gücləndirdi. Sovet dönəmində klassikadan ideoloji vasitə olaraq istifadə olunmasını Ulu Öndər daha ali məqsədə –Azərbaycan xalqının tanınmasına, milli iftixar və qürur obyektinə çevirdi. Klassiklərin yubileylərinin ümumxalq və ölkə miqyasında təntənəli qeyd olunması ədəbiyyatın da tarixi mövzulara müraciətini şərtləndirir, tarixi roman və səhnə əsərlərinə tələbat yaradırdı. Digər tərəfdən, tarixi-mədəni keçmişlə, mənəvi sərvətlərlə ünsiyyət və tanışlıq milli özünüdərk və etno-identifikasiyaya təsirini göstərir, bu da özlüyündə Azərbaycan tarixinə, azərbaycançılığa marağı intensivləşdirirdi. Poeziyada olduğu kimi, həmin tendensiya nəsr və dramaturgiyada da təzahür edir, daha ardıcıl və əhatəli şəkil alırdı.

Tədqiqatçılar tarixi romanların təsnifatını apararaq: "Birinci tipə o romanları aid edirlər ki, keçmiş epoxanın qanunauyğunluqlarının təsviri ön plandadır, burada tarixi şəxsiyyətlərin roluna obyektiv və dəqiq qiymət verməyə çalışılır. İkinci tipə elə romanlar aiddir ki, müəlliflər tarixi materiala müasir həyatla birbaşa və dolayı analogiya yaratmaq məqsədi ilə müraciət edirlər" (12, s.23).

Tarixi roman və pyeslərin tarixi simalar və şəxsiyyətlər ətrafında, xüsusən də məşhur şairlər, yazıçılar, ədiblər üzərinə qələmə alınması da əlamətdar olub, böyük maarifləndirici-mədəniləşdirici funksiya kəsb edirdi. ""Babək" (C.Bərgüşad, "Sıyrılmış qılınc"), Xaqani (M.İsmayılov, "Xaqani") qədim dövr, Şah İsmayıl (Ə.Cəfərzadə, "Bakı-1501"; Ə.Nicat, "Qızılbaşlar"; F.Kərimzadə, "Xudafərin körpüsü"), Hacı Çələbi (M.İsmayılov, "Ağ yapıncı) orta əsrlər, M.F.Axundov (Ç.Hüseynov, "Fətəli fəthi"), M.Ş.Vazeh (Ə.Nicat, "Nəğməyə dönmüş ömür"), C.Məmmədquluzadə, Həmidə xanım Məmmədquluzadə (B.Bayramov, "Karvan yolu"), Qaçaq Kərəm (F.Eyvazlı, "Qaçaq Kərəm") isə XIX və ya XX əsrin əvvəllərində yaşayan tarixi şəxsiyyətlər kimi öz ədəbi və ictimai-siyasi fəaliyyətləri ilə roman qəhrəmanına çevrilmişlər" (11, s. 248). Bu sıraya romanlarla yanaşı, Nəriman Həsənzadənin "Atabəylər", Nəbi Xəzrinin "Torpağa sancılan qılınc",

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 300-308*

Bəxtiyar Vahabzadənin "Fəryad", İlyas Əfəndiyevin "Şeyx Məhəmməd Xiyabani" pyeslərini də əlavə etmək olar.

## ƏSAS HİSSƏ

Uzun illər tarixə sinfi münasibətlər prizmasından yanaşılması hökmdar, bəy, xan, zadəgan, mülkədar obrazlarının yalnız qara boyalarla, mənfi surət kimi verilməsi bəzi stereotiplər yaratmışdı. İ.Şıxlının "Dəli Kür", F.Kərimzadənin "Qarlı aşırım", İ.Əfəndiyevin "Mahnı dağlarda qaldı" əsərlərində ilk dəfə olaraq bu qəlibdən çıxdığını görürük. Tarixi roman və pyeslərdə həmin ənənənin davam etdiyini, yazıçıların tarixə sinfi deyil, milli maraqlar baxımından yanaşdığını müşahidə edirik. Bununla belə, sovet dönəmində ideoloji senzuranın qalması yazıçıları tarixi dövrləri, əsasən, şair və ədiblər ətrafında – Xaqani Şirvani ("Xaqani"), İmadəddin Nəsimi ("Məhşər"), Şah İsmayıl Xətai ("Xudafərin körpüsü"), Nişat Şirvani ("Vətənə qayıt"), Natəvan ("Xurşidbanu Natəvan"), Seyid Əzim Şirvani ("Aləmdə səsim var mənim"), M.Ş.Vazeh ("Nəğməyə dönmüş ömür"), M.F.Axundzadə ("Fətəli fəthi"), A.Səhhət və M.Ə.Sabir ("Yad et məni"), C.Məmmədquluzadə ("Karvan yolu") və b. ədəbi simaların mücəssəmində işıqlandırmağa sövq edirdi. Əsas məsələ ondan ibarətdir ki, müəlliflər tarixin ruhuna sadiq qalır, əks etdirdikləri dövrün Azərbaycan həqiqətlərini obyektiv nəzərlərdən, sinfi ayrı-seçkiliyə yol vermədən qələmə alır, tarixi şəxsiyyətlərin roluna önəm verirdilər.

Azərbaycan yazıçılarının VII qurultayında ümummilli lider Heydər Əliyevin: "Açıq demək lazımdır ki, Azərbaycan tarixinin bir çox parlaq səhifələri bədii ədəbiyyatda layiqincə əks etdirilməmişdir..." (7, s. 124) – deyə, yazıçıları daha cəsarətli olmağa, milli tarixin həqiqətlərinə daha da həssas olmağa çağırışından sonra ədəbiyyatda tarix axtarıcılığı bir az da güclənmiş, yalnız tarixi şəxsiyyətlərə aid deyil, müəllif fantaziyası ilə milli tarixin müxtəlif dövrlərinə baş vuran konseptual romanlar da meydana gəlmişdir. Mövlud Süleymanlının "Köç" (1980), Elçinin "Mahmud və Məryəm" (1982), Çingiz Hüseynovun "Fətəli Fəthi" (1986), İlyas Əfəndiyevin "Geriyə baxma, qoca" (1980) və "Üçatılan" (1981) əsərləri, məhz milli təfəkkür işığında tarixi konseptuallaşdırmaq cəhdlərindən ibarətdir. Yaxın tarixi analitik təfəkkürlə mühakiməyə çəkən Y.Səmədoğlunun "Qətl günü" (1981-1984), Elçinin "Ağ dəvə" (1984) və "Ölüm hökmü" (1984-1988), M.Süleymanlının "Ceviz qurdu" (1982) əsərlərinin yaranması da ümummilli liderin çağırışına cavab kimi səslənirdi. Sovet rejiminin dağılması ərəfəsində bu əsərlərin yaranması azərbaycançılıq şüurunu gücləndirir və milli cəmiyyətin istiqlal ideyalarını hazırlayırdı.

Belə əsərlərdən biri, Anarın 1970-ci ildə kino-dastan janrında qələmə aldığı "Dədə Qorqud" əsərində (1970-1973) yazıçı milli soykökünə diqqət çəkir, sovet dönəmində ilk dəfə olaraq Azərbaycan xalqının türk kimliyinə işarə edir. "Qoy el ağ-

saqqalı, yurdun müdrik bilicisi Dədə Qorqud gəlsin, qopuzunu əlinə alsın, ötənlərdən, keçənlərdən söz açsın, söy söyləsin, boy boylasın, igid ərənlərin başına gələnlərdən danışsın" (2, s. 415). Əsərə epiqrafında Anar yazır: "Kitabi-Dədə Qorqud" Azərbaycan ədəbiyyatının ölməz abidəsidir. Əsərdə qədim əcdadımızın həyatı, məişəti, dünyagörüşü əks olunmuş, Azərbaycan ərazisində təxminən min il bundan qabaq baş vermiş hadisələr təsvir edilmişdir..." (2, s. 415) Ancaq qeyd edək ki, yazıçının yeddicildlik külliyyatında "Dədə Qorqud" kino-dastanı bu epiqraf çıxarılaraq çap edilmişdir. (1, s.59)

"Kitabi-Dədə Qorqud" 1930-1950-ci illər stalinizm dövründə repressiyaya uğramış Azərbaycan abidələrindəndir. Guya xalqlar arasında münaqişəni təşviq edən əsər kimi qadağan olunsa da, 1962-ci ildə akademik Həmid Araslının hazırlaması ilə nəşr olunmuş (9), haqqında ilk tədqiqatlar da yazılmışdır (4). Anar əsəri dastanın motivləri əsasında qələmə almış, məhz onun ssenarisi əsasında çəkilmiş eyniadlı filmdən (1975) sonra Dədə Qorqud kultu kütləviləşərək milli özünüdərk proseslərində müstəsna rol oynamışdır.

Əsərdə Oğuz elinin simasında ilkin Azərbaycan cəmiyyətinin yaşayış tərzi, adət-ənənələri, ritualları və mərasimləri, düşmənə qarşı mənəvi birliyi və sarsılmazlığı, hünər və qəhrəmanlıq salnaməsi təcəssüm olunub. Oğuzu təhdid edən əsas təhlükə heç də düşmən basqını deyil, bu basqına səbəb olan, şərait yaradan daxili parçalanma, oğuz boyları arasında nifaq, oğuz igidlərinin qarşılaşmasıdır. Bu heç də sinfi qarşılaşma deyil, Oğuzun bütövlüyünə, mənəvi kodeksinə, qızıl qaydalarına əməl olunmamasının nəticəsidir. Oğuzun bütövlüyünün qarantı olan el ağsaqqalı Dədə Qorqud "Hanı dediyim o ərənlər? Dünya mənim deyənlər? Əcəl aldı, yer gizlədi, fani dünya yenə qaldı!.." (2, s. 420) deyə, Oğuzun qızıl dövrlərini xatırlayır və kino-dastanı ibrət dərsi olaraq söyləyir.

Yazıçı dastandan Bayandır xan, Alp Aruz, Baybura və Baybecan, Bəkil, Qazan, Burla Xatun, Beyrək, Banıçiçək, Yalıncıq, Selcan Xatun, Qarabudaq, Qaraca Çoban, Qıpçaq Məlik və b. bir çox surətlərin adını eyni saxlamaqla, əsasən, gənc nəsli təmsil edən Tural, Günel, Aysel, Günay, Azər kimi simvolik mahiyyətli yeni obrazlar da yaradır. Gənc nəsil millətin gələcəyini təmsil edir. Döyüş meydanlarında tökülmüş qanlardan ibrət götürərək, torpağı əkib-becərmək üçün daşdan-kəsəkdən təmizləyən Qaraca Çobana Beyrəyin on yaşlı oğlu da kömək edir. Dədə Qorqud oğlana Azər adını verir.

Əsərin və filmin populyarlığı, böyük rəğbət qazanması Dədə Qorqudun dilindən səslənən bir çox aforistik sözlər, didaktik fikirlərin də geniş yayılmasına səbəb olmuşdur. "Dədə Qorqud" kino-dastanının son sovet dönəmində gənclərin milli ruhda, azərbaycançılıq qayəsi ilə tərbiyələnməsində, yetişməsində hədsiz rolu olmuşdur. Bunun nəticəsidir ki: "Faktoloji baxımdan yanaşdıqda, ötən əsrin ortalarında müəyyən "sovet qadağaları" dönəmindən sonra "Kitabi-Dədə Qorqud" dastanı "reabilitəsi"ni qazanmış, tədricən ədəbiyyat tarixi kitablarımızda, ədəbi-bədii və ictimai-mə-

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 3, 2026
Səh. 300-308

dəni şüurumuzda yerini almış; bugün orta məktəb dərsliklərinəcən geniş spektrdə – məhz milli epos kimi öyrənilir" (6, s. 8).

"Dədə Qorqud" filmi (rejissoru Tofiq Tağızadə) ilə yanaşı, 1960-1980-ci illərdə milli şüurun inkişafında müstəsna rolu olan daha iki – "Nəsimi" (1973) və "Babək" (1979) filmlərinin yaranmasında da tarixi romanların – İsa Hüseynovun "Məhşər" (1972) və Ənvər Məmmədxanlının "Babək" (1984) əsərlərinin dolayısı payı vardır. Hər iki filmin ərsəyə gəlməsində Ümummilli lider Heydər Əliyevin respublikada yürütdüyü azərbaycançılıq siyasətinin fəal müdaxiləsi olmuşdur. Bu barədə İsa Hüseynov xatirələrində söz açır. "Bədii filmin çəkilməsi ideyası Heydər Əliyevə məxsus olduğu kimi, ssenarisini də İsa Hüseynova şəxsən tapşırır. Bir neçə ay sonra ssenari hazır olsa da, çəkiliş ləngiyir. "Aradan bir neçə ay keçəndən sonra eşitdim ki, Heydər Əliyev mədəniyyət şöbəsinin müdiri Azad Şərifovu çağırıb "Nəsimi" filminin nə vəziyyətdə olduğunu soruşub. Şərifov deyib: "U menya bolşiye somneniya po povodu ssenariya" (Tərcüməsi: "Filmin ssenarisi məndə şübhə doğurur" – red.). Heydər Əliyev qəzəblənib: "Mən filmi gözləyirəm, a vı vsyo yeşşo somnevayetes", – deyib. Həmin gün SSRİ Kinomatoqrafiya Komitəsinin sədrinə zəng vurub, ssenarinin vəziyyətini soruşub, müsbət cavab alıb". Yazıçı şəxsən özü gedib təcili ssenarini gətirməli olur və Heydər Əliyevin daimi dəstəyi ilə film Bakıda, Naxçıvanda, Özbəkistanda Xivə şəhərində uğurla çəkilib başa çatır" (5, s. 194).

"Məhşər" romanı XIV əsrdə Orta Asiya hökmdarı Teymurləngin qərbə yürüşləri, Azərbaycanı istilası hadisələrini işıqlandırır. Elə ilk səhifələrdən Azərbaycanın bu tarixi hadisələrin mərkəzində olması qabardılır: "Yeddi yüz minlik selin viran qoyduğu ərazidə tək bir ölkə qalmışdı ki, Teymur onu rəsmən səltənətinə daxil etsə də, əslində təslim edə bilməmişdi. O ölkə Azərbaycan idi. Qalalar arasında tək bir qala qalmışdı ki, Teymur onu uzun illər ərzində mühasirədə saxlasa da, heç cür ala bilmirdi. O qala Naxçıvanda Əlincə qalası idi..." (8, s. 7-8). Tarixi faktlara söykənən romanda hadisələr Yaxın Şərqdə, İraqda, Suriyada, Rumda, Azərbaycanda, o cümlədən Bağdadda, Hələbdə, Şamda, Naxçıvanda, Şirvanda, Şamaxıda, Bakıda və s. ərazilərdə cərəyan edir. Oxucular bilavasitə tarixi Azərbaycanla, onun orta əsrlərdə geosiyasi mənzərəsi və mövqeyi ilə tanış olur, cənubda Naxçıvanın və Təbrizin, şimalda Şirvanşahların nümunəsində dövlətçilik tarixində mühüm yer tutmasını əyani görürlər. Romanda Əmir Teymur, İldırım Bəyazid, Miranşah, İbrahim şah, Şeyx Əzəm, Mövlanə Tacəddin, Sultan Əhməd Cəlairi, Qaraqoyunlu Yusif, Fəzlullah Nəimi, İmadəddin Nəsimi və b. tarixi obrazlar yer almışdır. Lakin yazıçı bu dövr Azərbaycanının gücünü siyasi proseslərdən də, istilalarla müşayiət olunan tarixi çaxnaşmalardan da çox mənəvi varlığında, Azərbaycandan başlayıb bütün Yaxın Şərqi və Rum elini bürümüş hürifilik hərəkatında görür. Torpaqları fəth edən, böyük imperiya yaradan Teymurləng, məhz bu güc qarşısında dayanmalı olur, ona önəm verir. Fəzlullah Nəiminin hürufilik təlimi və İmadəddin Nəsiminin möhtəşəm obrazı bütünlükdə ro-

manın təsiredici atmosferini təyin etdiyi kimi, müasir oxucunu da ələ alır, onu hürufiliyin timsalında milli ruhun fəlsəfəsinə aşina edir, təsirini göstərirdi.

İsa Hüseynovun “Məhşər” romanı və ssenarisi əsasında çəkilmiş “Nəsimi” filmi (rejissoru Həsən Seyidbəyli) klassik dəyərlərimizin müasir dövrdə aktuallaşması, çağdaş insanın həyatında rolu və iştirakının artmasında hədsiz təsiri olmuşdur. “Ümummilli lider Heydər Əliyevin “Nəsimi” kinossenarisinin yazılmasını İsa Hüseynova tapşırması, “Məhşər” romanının yazılması yazıçının həyatı və yaradıcılığı üçün bir stimul olmuşdur”(3, s.680)

Hüseyn Cavidin “Topal Teymur” (1926) pyesindən sonra Teymurləng mövzusuna müraciət 1970-1980-ci illərdə ədəbiyyatın milli tarixin müxtəlif dövrlərinə baş vurmaq, reabilitə etmək, müasirlərə təqdim etmək niyyətini ifadə edirdi. Belə əsərlərdən biri də Ənvər Məmmədxanlının IX əsr Babək hərəkatına müraciətlə qələmə aldığı “Babək” romanı idi. Cəfər Cabbarlının “Od gəlini” (1927) pyesindən yarım əsrdən çox sonra mövzunun aktuallaşması əlamətdar və önəmlidir. Pyesdə ərəblərin Azərbaycanı işğal faktoru sovet qoşunlarının ölkəni zəbt etməsi ilə analogiyanı şərtləndirirdisə, romanda xürrəmilər və Babək hərəkatının azadlıq uğrunda mübarizəsi son sovet dönəmində azərbaycançılıq və istiqlal ideyalarının oyanışı ilə bağlanır.

Yazıçının irsini təqdim edərək, Anar göstərir ki, Ənvər Məmmədxanlı ömrünün son iyirmi ilini Babək mövzusuna həsr etmişdir. 1974-cü ildə qələmə aldığı ssenari əsasında “Babək” filmi (1979; rejissoru Eldar Quliyev) çəkilmiş, 1975-ci ildə “Xürrəmilərin ağ şahini” dram əsərini yazmış, 1984-cü ildə romanın birinci hissəsini tamamlamışdır. Əsəri tam bitirmək yazıçıya nəsib olmasa da, Anarın fikrincə, “Babəkə həsr olunmuş ədəbi ssenarisini də Ə.Məmmədxanlı bir nəsr əsəri səpkisində və əsl proza səviyyəsində yazmışdır”, “ssenaridəki hadisələrin romandakı süjetin davamı olması, eyni obrazların hər iki əsərdən keçməsi” (10, s. 9-10) səbəbindən, ssenari də (ikinci hissə kimi) daxil olmaqla, “Babək” əsəri bitkin bir roman halında nəşr edilmişdir. Romanın əsas ideyası, qeyd olunduğu kimi, Azadlıq eşqi, istiqlal məfkurəsidir. Babəkin dilindən səslənən, rəqiblərinə və kütləyə müraciətlə deyilən sözlər: “Ey yazıqlar, siz heç vaxt dərk etməyəcəksiniz ki, azadlıq yanğısı nə deməkdir. O dəhşətli yanğı ki, ürəyi yandırıb külə döndərir. Azadlıq...” (10, s. 407) – min il əvvəl qəlblərdə oyatdığı azadlıq təşnəsini, sovet dönəmində də alovlandırır, xüsusən “Babək” filminin nümayişindən sonra geniş auditoriyaları səfərbər edirdi. Anarın artıq müstəqillik illərində romanın nəşrinə yazdığı ön sözündə doğru vurğuladığı kimi: “Bu sözlər də ədalətli gələcək və bərabərlik dünyası haqqında nağılların rəsmi ideologiya olduğu dövrlərdə yazılıb” (10, s. 11)

## NƏTİCƏ

Tədqiqat göstərir ki, 1960-1980-ci illər Azərbaycan ədəbiyyatında tarixi roman və dramaturgiya janrları milli kimlik və azadlıq ideallarının bədii ifadəsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. Bu dövrdə sovet ideoloji çərçivələri mövcud olsa da,

yazıçılar Azərbaycan tarixinin müxtəlif mərhələlərinə müraciət etməklə xalqın milli yaddaşını, dövlətçilik ənənələrini və mənəvi dəyərlərini bədii şəkildə yenidən canlandırmış, azərbaycançılıq düşüncəsini ədəbi müstəvidə ifadə etmişlər. Başqa sözlə, ədəbiyyat həmin mərhələdə rəsmi ideoloji çərçivə daxilində hadisələrə daha mürəkkəb yanaşma formalaşdırmağa nail olmuş, milli düşüncənin qorunub saxlanması baxımından mühüm estetik funksiya yerinə yetirmişdir. Bu dövrün tarixi roman və dram əsərlərində Azərbaycanın tarixi şəxsiyyətləri, folklor və epos motivləri, eləcə də dövlətçilik ənənələri milli kimliyin bədii təqdimatının əsas vasitələrindən birinə çevrilmişdir. Yazıçılar tarixi hadisələri təsvir edərkən, əslində, həmin hadisələrin fonunda öz dövrlərinin ideya-estetik problemlərini də ifadə etməyə çalışmışlar. Nəticədə tarixi mövzu sovet ideologiyasının məhdudiyyətlərini müəyyən dərəcədə aşaraq milli özünüdərkin bədii ifadə vasitəsinə çevrilmişdir. Beləliklə, 1960-1980-ci illərdə Azərbaycan tarixi roman və dramaturgiyası tarixi yaddaşın oyanmasında, milli özünüdərk prosesinin güclənməsində, azərbaycançılıq məfkurəsinin formalaşmasında mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT

1. Anar, Əsərləri: [7 cilddə] / Anar. – Bakı: Nurlan, – c. 6. – 2006. – 626 s.
2. Anar. Adamın adamı. Povestlər, hekayələr, esselər. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1977. – 504 s.
3. Azərbaycan ədəbiyyatı tarixi: [10 cilddə]. – Bakı: Elm, – c. 7, II hissə. – 2025. – 952 s.
4. Cəmşidov, Ş. Kitabi-Dədə Qorqudu vərəqləyərkən. – Bakı: Gənclik, – 1969. – 100 s.
5. Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala / İ.Ə.Həbibbəyli [və b.]. – Bakı: Elm və təhsil, – 2018. – 400 s.
6. Əlişanoğlu, T. Azərbaycançılıq oçerkləri. – Bakı: Elm, – 2023. – 288 s.
7. Əliyev, H.Ə. Müdriklik mücəssəməsi (məruzələr, çıxışlar, görüşlər, müsahibələr). – Bakı: Elm, – 2023. – 512 s.
8. Hüseynov, İ. Seçilmiş əsərləri: [3 cilddə] / İ.Hüseynov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – c. 1. – 1988 – 416 s.
9. Kitabi-Dədə Qorqud. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1962. – 174 s.
10. Məmmədxanlı, Ə. Seçilmiş əsərləri. – Bakı: Avrasiya press, – 2005. – 416 s.
11. Salamoğlu, T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Monoqrafiya və ədəbi tənqid məqalələri. – Bakı: E.L. NPŞ MMC, – 2012. – 480 s.
12. Varfolomeyev İ.T., Tipoloqiçeskiye osnovı janrov istoriçeskoy romanistiki (klassifikasiya vida). – Taşkent: Fan, – 1979. – 168 s.

**Rəyçi: Akademik Nizami Cəfərov**